Aynurə SƏFƏROVA
filologiya üzrə fəlsəfə doktoru
AMEA Folklor İnstitutu
E-mail: aynura.safarova1@gmail.com

"KİTABİ-DƏDƏ QORQUD" DASTANINDA OĞUZLARIN HƏYAT TƏRZİ VƏ AİLƏ MÜNASİBƏTLƏRİ

XÜLASƏ

Məqalədə oğuzların qəhrəmanlıqla dolu tarixi keçmişini, mənəvi-əxlaqi dəyərlərini, ailə münasibətlərini əks etdirən "Kitabi-Dədə Qorqud" boylarındakı insanların yaşam tərzi və qarşılıqlı münasibətləri təhlil edilmişdir. "Kitabi-Dədə Qorqud" dastanında oğuz ailəsinə xas xarakterik münasibətlərin təsviri verilmiş, tipik xüsusiyyətləri araşdırılmışdır. Ayrı-ayrı boylardan gətirilmiş örnəklər üzərində ailə münasibətlərindən bəhs edilmiş, valideyn-övlad, ər-arvad, bacı-qardaş və qardaşlıq münasibətləri təhlil edilmiş, ailə üzvlərinin biri-birinə yanaşmalarındakı qarşılıqlı səmimiyyətdən söhbət açılmışdır. Dastanda ailə əxlaqını və mənəviyyatını sərgiləyən məqamlara geniş rastlandığı qeyd edilmiş, bu baxımdan dastanın əcdadlarımızın həyat tərzi haqqında əvəzsiz mənbə olduğu vurğulanmışdır. Oğuzların qədim və şanlı tarixi keçmişini, adət-ənənələrini, ailə və məişət həyatını özündə əks etdirdiyindən "Kitabi-Dədə Qorqud" dastanı çox böyük dəyər kəsb edir. Belə möhtəşəm ədəbi-bədii abidəyə sahib olan millət bu dastanla qürur duymaqda haqlıdır.

Açar sözlər: Kitabi-Dədə Qorqud, dastan, ailə dəyərləri, adət, ənənə

SUMMARY

OGUZ LIFESTYLE AND FAMILY RELATIONS IN THE EPOS «THE BOOK OF DEDE GORGUD»

The article analyzes the lifestyle and mutual relations of the nation of «The Book of Dede Gorgud», which reflects the heroic past of the Oguzs, their moral values and family relations. In the epos «The Book of Dede Gorgud» the characteristic relations of the Oghuz family are described, typical features are studied. Human relations were discussed on the examples from different boyes (parts), parent-child, wife-husband, sister-brother and brotherhood relations were analyzed, and sincere attitude of family members was discussed. In the saga, issues expressing family morality and spirituality are mentioned, and in this regard, it is shown that the saga is an invaluable source about the way of life of our ancestors. The epos «The Book of Dede Gorgud» is very valuable because it reflects the ancient and glorious history of the Oguzs, their traditions, family and domestic life. The nation, which has such a magnificent literary and artistic monument, should be proud of this saga.

Keywords: "The Book of Dede Gorgud, saga, family values, customs, traditions

ОБРАЗ ЖИЗНИ И СЕМЕЙНЫЕ ОТНОШЕНИЯ ОГУЗОВ В ДАСТАНЕ «КИТАБИ ДЕДЕ КОРКУТ»

РЕЗЮМЕ

В частях дастана (в бойларах) рассказывается о героическом прошлом огузов, о морально-нравственных ценностях, о семейных отношениях и образах жизни людей, и их взаимоотношения, которые анализируются в данной статье. В дастане «Китаби Деде Горгуд» дано изображение семейных отношений, и исследуются их типичные особенности характерных для огузов . На основе примеров изображенных в отдельных частей дастана (в бойларах), анализируются человеческие отношения, родитель – дитя, муж – жена, брат и сестра, братство, а также рассказывается о членах семьи, и об их добрых взаимоотношениях. В дастане встречаются моменты, где широко отмечается нравственно - моральные семейные ценности и этим самым выявляется образ жизни наших предков, которые становятся бес-

ценным источником для данного произведения. Большую ценность дастана «Китаби Деде Горгуд» представляет героическое прошлое огузов, их обычаи и традиции, семья и жизнь в быту. Народ, обладающий таким великолепным литературно – художественным памятником, будет прав испытывать чувство гордости за данный дастан.

Ключевые слова: Китаби Деде Горгуд, дастан, семейные ценности, обычаи, традиции.

Giriş. "Kitabi-Dədə Qorqud" oğuzların qədim tarixini, milli dəyərlərini, ümumiyyətlə, oğuz-türk mədəniyyətini əks etdirən möhtəşəm abidədir. Bu böyük abidədə oğuzların həyat tərzi, ailə münasibətləri təsvir edilmiş, oğuz ailəsinə xas xarakterik xüsusiyyətlər, onların təfəkkür tərzi, milli-mənəvi və əxlaqi dəyərləri əks olunmuşdur. "Kitabi-Dədə Qorqud" soykökümüzün, qan yaddaşımızın, mənəvi dəyərlərimizin əks olunması baxımından əvəzsiz kitabdır. Tofiq Hacıyevin dediyi kimi, "türkü türk edən, bizi biz edən nə varsa, hamısı bu kitabda vardır" (7, 268). "Oğuznamə barədə araşdırmalarda tez-tez qarşılaşdığımız "oğuz qəhrəmanlıq dastanları", "oğuz dastanı", "oğuz eposu" və s. kimi ifadələr, həmçinin dastanın məzmunu onun etnik mənsubiyyətini müəyyənləşdirmək üçün kifayət deyil. Bunun üçün onun hansı etnik mühitdə yaşaması və bu etnik mühitlə funksional əlaqələri öyrənilməlidir. Onların öyrənilməsi özü-özlüyündə bizə Oğuznaməni yaradan xalqın ünvanını da göstərir" (3, 13).

Dastanda oğuzların yaşam tərzi, dünyagörüşü və həyata baxışı ilə bağlı hər bir detal öz əksini tapmışdır. Oğuzlara aid tarixi keçmişi, qədim adət-ənənələri, ailə münasibətlərini öyrənmək baxımından "Kitabi-Dədə Qorqud" əvəzedilməz mənbədir. "Heç bir xalqda analoqu olmayan bu abidə elə bir bədii əsərdir ki, onda türkün ilkin dünyagörüşündən başlamış orta çağların tarixi hadisələrinə qədər əksər sosial institutların izləri əks olunur, daha dəqiq desək, Qafqaz türklərinin milli xarakteri, psixologiyası, adət-ənənələri, dini-fəlsəfi baxışları, əxlaqı, dövlət quruculuğu, qəhrəmanlıq salnaməsi, ailə münasibətləri (ər-arvad, ata-oğul), vətənə, torpağa bağlılığı, qonşularla əlaqələri, ritualları, məişəti, yaşayış tərzinin əksər atributları, daxili və xarici düşmənlərlə mübarizəsi, müxtəlif təbəqələrə və yaş dövrlərinə məxsus insanların davranışı, şifahi və yazılı dilinin tarixi özünə yer tapır (9, 4).

Dastanda ailə əxlaqının formalaşmasında ağsaqqalların yeni nəsilə verdiyi öyüd-nəsihət mühüm yer tutur. Elin böyüyünə, evin böyüyünə, ağsaqqala ehtiram, ata-anaya, qayınataya, böyük qardaşa hörmət və bu kimi məqamlara ayrı-ayrı boylarda rast gəlinir. Bu mənada dastanın əvvəlində el ozanı Dədə Qorqudun verdiyi tövsiyələr oğuzların sahib olduğu əxlaqi dəyərləri ifadə edir:

Qız anadan görməyincə ögüt almaz.
Oğul atadan görməyincə süfrə çəkməz.
Oğul atanın yetiridir, iki gözinin biridir.
Dövlətlü oğul qopsa, ocağının közidir.
Oğul daxı neyləsün, baba ölüb mal qalmasa,
Baba malından nə faidə, başda dövlət olmasa... (10, 20)

Dədə Qorqudun dilindən "Müqəddimə"də təqdim edilmiş bu və buna bənzər nəsihətlər oğuzlar arasında etik davranış qaydalarını göstərməklə yanaşı, həm də Oğuz elində ağsaqqal sözü dinləməyin dəyərini, əhəmiyyətini ifadə edir. Ailədə

və cəmiyyətdə böyüyə, ağsaqqala qarşı sayğı və hörmətin vacibliyi, onlara qarşı hörmətsizliyin bağışlanmaz olduğu vurğulanır.

"Kitabi-Dədə Qorqud" dastanında oğuzların həyat tərzi və adət-ənənələri. Dastanda oğuzların həyat tərzini, mərasimlərini, adət və ənənələrini əks etdirən etnoqrafik məlumatlar saysız-hesabsızdır. Bayındır xanın ildə bir dəfə evini yağmalatması, var-dövlətini insanlar arasında bölüşdürməsi tarixi keçmişimizlə bağlı ənənəvi mərasimdir. Çox güman ki, "bu, onların əcdadlarının xatirəsinə ehtiramla yanaşdıqlarını bildirir, həm də tayfadaxili münasibətləri nizamlayır" (1, 10). Burada oğuzların mənəvi dünyası, onlara aid tipik və xarakterik xüsusiyyətlər ifadə olunur. Oğuzlar xeyirxahdır, köməyə ehtiyacı olana yardım edirlər. "Acı doyurmaq, çılpağı geyindirmək" ifadəsinə boylarda tez-tez rast gəlinir. Oğuzların yüksək əxlaqi keyfiyyətlərindən doğma elə, torpağa bağlılıq xüsusi yer tutur. Onlar döyüşkəndir, cəsurdur, hünərli və səxavətlidir, şərəfli və ləyaqətlidirlər. Doğma yurda, torpağa, el-obaya bağlıdırlar, öz əsil-kökləri ilə fəxr edirlər. Salur Qazanı əsir götürən kafirlər onun qarşısına şərt qoyur ki, öz əsil-kökünü söy, lənətlə, bizi tərifləsə, səni azad edərik. Qazan kafir düşmənə "oğuz ərənləri durarkən səni öyməərəm" deyir, düşməninə meydan oxuyur, öz əsil-kökünə dönük çıxmır, qopuzu əlinə alıb deyir:

... Ögünən ərənləri xoş görmədim!
Əlinə girmiş ikən, mərə kafir, öldür məni,
Qara qılıcın sal boynuma, kəs başım.
Qılıncından saparım yoq!
Kəndü əslim, kəndü köküm sımağım yoq!
Oğuz ərənləri durarkən səni ögməgim yoq! (10, 157).

Qopuzun müşayiətilə Qazan xanın kafirə verdiyi cavabdan bəlli olur ki, oğuz öz canından keçər, amma əsil və kökünə, doğma elinə xəyanət etməz, düşməninə boyun əyməz, düşməndən aman istəməz.

Oğuzlara xas xarakterik xüsusiyyətlərdən biri onların qonaqpərvər olmalarıdır. Dastanın "Dirsə xan oğlu Buğac xan boyu"nda Bayındır xanın ildə bir dəfə böyük məclis qurması, bütün oğuz bəylərini öz başına yığaraq ziyafət təşkil etməsi təsvir olunur. "Xanlar xanı Bayındır yildə bir kərrə toy edib Oğuz bəglərin qonaqlardı. Genə toy edib atdan ayğır, qoyundan qoç qırdırmışdı" (10, 55). İldə bir dəfə məclis qurub, ziyafət verməklə Bayındır xan bütün Oğuz elini ətrafına toplayır, elin qayğısına qalır. Eli qonaq etmək, elin qayğısına qalmaq, qonağı hörmətlə qarşılayıb, ehtiramla yola salmaq dastanda mənəvi keyfiyyətlərdən biri kimi göstərilir. Məlum olduğu kimi, dastanda "qarılar dört dürlüdür" ifadəsi var.

Qarılar dört dürlüdür:
Birisi solduran sopdur.
Birisi dolduran topdur.
Birisi evin dayağıdır,
Birisi necə söylərsən, bayağıdır (10, 22).

Sonra bu qadınların hər birinin xarakteri verilir. Burada bir yaxşı, üç mənfi xarakterli qadın obrazı təsvir edilir. Yaxşı qadın "evin dayağı" kimi səciyyələndi-

rilir və onun müsbət cəhəti kimi qonağa xoş, mehriban münasibəti göstərilir. "Ozan, evin dayağı oldur ki, yazıdan-yabandan evə qonaq gəlsə, ər adam evdə olmasa, ol anı yedirər-içirər, ağırlar-əzizlər, göndərər. Ol Ayişə, Fatimə soyıdır, xanım, anun bəbəkləri yetsün. Ocağına buncılayın övrət gəlsün" (10, 22). "Evin dayağı" kimi xarakterizə edilən qadının soyunun davam etməsini, hər evə, hər ocağa belə qadın gəlməsi arzulanır.

Mənfi xarakter kimi təqdim edilən digər qadınların şəxsi keyfiyyətləri onların qonağa qarşı münasibəti ilə "ölçülür". Dastandan həmin hissəyə baxaq:"Gəldik, ol kim, necə söylərsən, bayağıdır: ötə yazıdan – yabandan bir udlu qonaq gəlsə, ər adam evdə olsa, ana desə ki, dur ətmək gətir, yiyəlim, bu da yisün; disə bişmiş ətməgin bəqası olmaz, yimək gərəkdir, övrət aydar: Neyləyəyim, bu yıqılacaq evdə un yoq, ələk yoq, dəvə də dəgirməndən gəlmədi... Nə gəlirsə, bənim sağrıma gəlsün, - deyü əlin yanına vurar, yönin anaru, sağrısın ərinə döndürür. Bin söylərsən, birini qıymaz, ərin sözini qulağına qoymaz. Ol, Nuh peyğəmbərin eşəgi əslidür. Andan dəxi sizi, xanım, Allah saqlasun! Ocağınıza buncılayun övrət gəlməsün" (10, 23). Mətnin bu hissəsində əski oğuz mifinə işarə edilmişdir. Mifə görə, Nuh peyğəmbər dünyanı su basanda ona gəmi düzəltmək üçün kömək edən üç nəfərə qızını verməyi boyun olur. Ancaq onun bir qızı var. Çıxılmaz vəziyyətdə qalan Nuh peyğəmbər iti, eşşəyi və qızını bir yerə salıb qapını bağlayır. Səhər durub baxır ki, içəridə üç qız var. Qızları seçə bilmir, onları söz verdiyi kimi öz köməkçilərinə ərə verir. Bir müddət sonra arvadı ilə qızların evinə gedir. Birinci qız bütün günü deyinir, qaş-qabaqlı gəzir. İkinci qızın heç vecinə olmur ki, evinə qonaq gəlib. Üçüncü qız isə ata-anasını gülərüzlə qarşılayıb yola salır. Evə qayıdarkən Nuh arvadına deyir: "Birinci qız itdən dönmə qızımızdır, ikinci qız eşşəkdən dönmə qızımızdır, üçüncü qız isə öz qızımızdır".

Oğuzlar əliaçıq, xeyirxah və səxavətli olmaları ilə seçilirlər. "Əski zamanlardan oğuzlarda belə bir inam vardır ki, əliaçıqlıq, səxavətli olmaq yüksək mədəniyyətdir. Oğuzların qonaqpərvərliyinin əsasında mənəvi tələbatlar, müvafiq sosial, psixoloji motivlər, sərvətlər durur. Bu meyllər oğuzların yüksək mənəvi keyfiyyətlərini üzə çıxarır. Oğuzlar üçün tipik olan bu əlamət – qonaqpərvərlik, səxavət onların mənəvi simasının güzgüsüdür. Sanki həyat düsturuna çevrilmiş bu psixoloji xarakteristikanı Dədə Qorqud belə ifadə edir: Qonağı gəlməyən qara evlər yıqılsa, yeg!" (1, 25-26). T.Hacıyev dastanda oğuzun bütün ömür yolunu, doğulandan qocalanadək keçdiyi dövrü izləyərək belə qənaətə gəlmişdir ki, oğuz elində, ümumiyyətlə, bütöv türk coğrafiyasında insan uşaqlıqdan qocalana qədər, beşik evindən gor evinəcən ictimai himayədədir... Yetkinlik yaşına çatmış oğuz övladlarının davranışından, cəmiyyətdəki yerindən aydın olur ki, oğuz ailələrində uşağın fiziki, əqli və estetik tərbiyəsi vəhdətdə aparılır. Böyüyən oğuz övladı ox atmaq, qılınc tutmaq məharəti ilə yanaşı, intellekti, təmkini ilə, vətəndaşlığı, vətən, millət sevgisi ilə, sədaqəti, məsləyi ilə səciyyələnir (6, 102).

"Kitabi-Dədə Qorqud"da ailə münasibətləri. Dastanın mətnini oxuyarkən qədim oğuzların ailədaxili münasibətləri, bir-birinə müraciət formaları diqqəti çəkir. Sosial statusundan asılı olmayaraq bütün dastan qəhrəmanları valideynlərinə

hörmət edirlər. Burada *"*Ana haqqı – Tanrı haqqı"na bərabər tutulur. Dastan qəhrəmanlarının bir-birinə müraciəti, duyğu və ehtiramlarını ifadə edən qəlibləşmiş sözlər, formullar, müraciət formaları – xitablar, doğmalığı əks etdirən ifadələr onlar arasındakı mehribanlığı və səmimiyyəti göstərir. Burada valideyn-övlad, bacı-qardaş, ər-arvad və digər münasibətlər, ailə üzvlərinin biri-birinə yanaşmalarındakı qarşılıqlı ehtiramı, böyüyə hörmət, kiçiyə mərhəmət duyğularını ifadə edir. Dastanda Uruz anasına "xanım ana", Buğac isə "ağ südün əmdigim qadınım ana" deyir. Analar da oğullarına sevgi, nəvaziş dolu kəlmələrlə xitab edir:

Dünlügi altun ban evimin qəbzəsi oğul,
Qaza bənzər qızımın-gəlinimin çiçəgi oğul,
Oğul, oğul, ay oğul,
Doquz ay dar qarnımda götürdügüm oğul,
On ay deyəndə dünyaya gətürdügim oğul,
Dolması altun beşikdə bələdügim oğul! (10, 45)

Oğuz igidləri analarını başının tacı bilir, ananın namusunu bütün dəyərlərdən üstün tutur, onların uğrunda candan keçməyə hazır olurlar, təki düşmən anasını tanımasın, bilməsin. Əsirlikdə olan Uruz anasının tanınmaması üçün əlindən gələni edir. Qazanın evini kafirlər yağmalayarkən Qazan xan mal-mülkündən, var-dövlətindən imtina etməyə hazırdır, təki anasını düşməndən qoruya bilsin. "Oğuz xalqında ananın haqqına Tanrı haqqı kimi baxılır. Ana Tanrı səviyyəsində qiymətləndirilir. Tanrı yaradıcı olduğu kimi Ana da yaradıcıdır, törədicidir, dünyaya övlad gətirir, onu öz canı ilə bəsləyir" (6, 106). Oğuz ailəsində analar müqəddəsdir, toxunulmazdır, analar qeyrət, namus rəmzidir. Ona görə də oğuz igidləri ananı dünyanın bütün var-dövlətindən, mal-mülkündən üstün tuturlar. "Oğuz ailə qurumunda nə varsa, hamısını, ata da daxil olmaqla, tərəzinin bir gözünə, ananı da o biri gözünə qoysan, ana ağır gəlir. Oğuzun ləyaqəti budur, oğuzun tarixi mədəniyyətində ananın yeri budur... Oğuzun xeyir-bərəkəti də, cəmiyyətdəki mənəvi saflıq, şəxsiyyətin öz ləyaqətinə görə qiymətləndirilməsi, cəmiyyətin fərdə humanist qayğısı oğuz elində anaya fövqəladə dürüst münasibətdən gəlir. Bu hədisdə deyildiyi kimi, "Cənnət anaların ayağı altındadır" ölçüsüdür" (6, 107).

Dastanda ata-oğul arasındakı münasibətlər oğuz elinin qədim adət-ənənələri ilə sıx bağlıdır. Burada ata-oğul münasibətləri ailədaxili münasibət müstəvisindən daha genişdir, bu münasibətlər ümumilikdə oğuz toplumuna xarakterik göstəricilərdən biri kimi əhəmiyyətli məzmun daşıyır. Oğuz igidləri ata sözündən heç vaxt çıxmaz. Atanın sözü qanun sayılır, ata sözünü dinləməyən oğul övladlıqdan çıxarılırdı. "Ol zamanda oğul ata sözin iki eləməzdi. İki eyləsə, ol oğlanı qəbul eləməzlərdi" (10, 83). "Atalar oğullarına güvənc yeri kimi baxır, oğullar da dara düşmüş atalarını xilas edirlər" (2, 74). Ata və oğul arasında belə münasibəti "Dirsə xan oğlu Buğac boyu"nda və "Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy"da müşahidə etmək mümkündür. Qazan xanın oğlu əsirlikdə olarkən ona müraciətlə dediyi parçadan atanın oğula olan sonsuz sevgisini görmək olur:

Oğul, oğul, ay oğul!
Qarşu yatan qara dağım yüksəgi oğul!

Güclü belim qüvvəti, canım oğul!
Qarannulı gözlərim aydını oğul!
Alar danla yerimdən durduğım sənինçün.
Qonur atım yorultmışam sənin içün (10, 90).

Qazan xan oğlunu yüksək dəyərləndirərək onu "qarşı yatan qara dağın yüksəyinə", "güclü belinin qüvvətinə", "qaranlıq gözlərinin işığına" bənzətmiş, nəticədə bir-birindən maraqlı epitet və bənzətmələr yaranmışdır. Bu bənzətmələr poetik obrazlılıq yaratmaqla yanaşı, ata-oğul münasibətlərinin də gözəlliyini təcəssüm etdirir. "Ayrı-ayrı obrazlarda və ya bədii mənzərələrdə səslənən bu lirik ifadələr sadəcə "bənzətmə" bədiiliyinin bəzəyi deyildir. Əslində bu "bəzək" fəlsəfi-estetik mənanın zahirində dolanıb, ona uyuşan bəzək, yaraşıq gətirir. Bunun özü də, əlbəttə, az əhəmiyyətli deyildir. Lakin ən böyük əhəmiyyəti bu poetik ifadələrin fəlsəfi-estetik məzmununda axtarmaq düzgün olardı" (4, 6). Oğul atası üçün dağ kimi əzəmətlidir. Xalq təfəkküründə atalar həmişə oğul övladını "düşmən çəpəri" hesab edir, onları özlərinə böyük dayaq, arxa-kömək bilirlər. Dastanda da "Uruzu qarşıda duran nəhəng dağın yüksəkliyi şəklində mənalandıran Qazan xan oğul varlığının mahiyyətini dərindən dərk edən ata kimi, onu öz varlığına məxsus amil kimi səciyyələndirir. "Qara dağımın yüksəyi" ifadə forması da bu məxsusluqdan irəli gəlir. Yəni Qazan xan öz oğlunu bütün qüdrət və əzəmət doğuran keyfiyyətlərin başlıcası, zirvəsi kimi qiymətləndirir. Bu, ata-övlad məhəbbətinin bədii-estetik ifadəsidir" (4, 7).

Ata-oğul münasibətləri həm də oğuz toplumunun qəhrəmanlıq ənənəsi ilə sıx əlaqəlidir. Dastandakı atalar və oğullar həm də Oğuz elinin adlı-sanlı qəhrəmanları olduğundan onlar arasındakı münasibətlər təkcə ailə arasındakı münasibətlər müstəvisində deyil, həm də cəmiyyətdə tutduqları mövqe baxımından incələnməlidir. "Ata-oğul münasibətləri qəhrəman və cəmiyyət münasibətlərinin ilk baxışdan ailə səviyyəsində təzahürü kimi görünsə də, əslində belə deyildir... Ata-oğul münasibətləri qəhrəmanlıq ənənəsi kimi iki səviyyəni əhatə edir: 1. Qəhrəman ata kimi. 2. Qəhrəman oğul kimi. Dastanda təqdim olunan ata-oğul münasibətləri bədii məzmun baxımından nə qədər rəngarəng lövhələrdə təqdim olunsa da, bu münasibətlərin mahiyyəti bütün hallarda qəhrəmanlıqla bağlı olur. Çünki dastanda təqdim olunan bütün oğuz ataları alp igidlər, qəhrəmanlardır və onlar öz oğullarını da qəhrəman kimi görmək istəyirlər" (5, 146). Oğuz elinin adətinə görə, ata oğlunu cəmiyyət üçün yetişdirməli, at minmək, ox atmaq, ov ovlamaq, baş kəsib qan tökmək və d. vərdişləri öyrətməlidir. Bu mənada dastanın "Qazan bəg oğlı Uruz bəgin tutsaq oldığı boy"nda ata-oğul arasındakı münasibətlərin maraqlı süjet xətti görülür. Qazan, on altı yaşına çatmış oğlu Uruzun hələ də qəhrəmanlıq göstərməməsini özünə dərd edir. Uruz bu məsələdə atasını məzəmmət edir. Dirsə xanla oğlu Buğac arasında da təxminən eyni münasibət müşahidə edilir. "Ata və oğul arasındakı əlaqənin genealoji planda deyil, ictimai çərçivədə bərqərar olmasıdır ki, həmin məqam Buğacın öz atası Dirsə xana və Uruzun öz atası Qazan xana bağlılığı fonunda özünü daha qabarıq göstərir. Uyğun olaraq boylarda Dirsə xanla Buğac arasındakı ziddiyyət və onun aradan qaldırılması, dustaq olan Uruzun Qa-

zan xan tərəfindən, əsir düşmüş Qazan xanın isə Uruz tərəfindən xilas edilməsi bu fikri tam şəkildə təsdiqləyir" (2, 73). Bütün belə faktlar bir daha təsdiqləyir ki, oğuz adət-ənənəsinə görə, ata və oğullar arasındakı münasibət sevgi, qarşılıqlı hörmətlə yanaşı, həm də məsuliyyətli davranış normasına əsaslanır. Bəzi məqamlarda Qazan xanın oğluna igidlik göstərməməsini irad tutması və Uruzun atasına xırda məzəmməti, yaxud narazılığı duyulur. "Oğulla-ata mübahisələrində bir mülayim demokratizm görünür. Qəhrəmanlığın erkən yaşlarda üzə çıxmaması oğuz soyunda erkək üçün böyük qəbahətdir. Uruzun ad alması gecikir və atası Qazan xan bu münasibətlə gileylənir. Cavabında Uruz atasına irad tutur: "Hünəri oğul atadanmı öyrənər, yoxsa atalar oğuldanmı öyrənər? Haçan sən məni alıb kafər sərhəddinə çıxardın? Qılınc çalıb baş kəsdin? Mən səndən nə gördüm, nə öyrənim?" (6, 104). Qazan xanla oğlu arasındakı bu xırda incikliyə baxmayaraq ümumilikdə oğuz igidlərinin hər biri öz atasının yolunda canından keçməyə hazırdır. Oğlunun itkin düşməsindən sonra gözləri kor olmuş, hər gün yol ayrıcında oturub gəlib gedənlərdən Beyrəyin sorağını almağa çalışan Baybörə bəyin gözləri məhz oğlunun barmağını çərtib qanını atasının gözlərinə sürtdükdən sonra açılır. Bu da ata və oğul arasındakı dərin bağların – doğmalığın olmasının, valideyn-övlad sevgisinin fərqli şəkildə təzahürüdür.

Dastanda ər-arvad münasibətləri də maraq doğurur, oğuz kişiləri ömür yoldaşlarına "başım baxtı, evim taxtı", "xan qızı", "yad qızı, halalım" deyir, onlara böyük dəyər verirlər. Dirsə xanın xatununa ünvanladığı lirik-poetik ifadələrin hər biri dərin hiss və emosiyanın ahəngindən, həmin duyğuların bədii söz sənəti ilə mükəmməl ifadəsindən xəbər verir:

Bərü gəlgil, başım baxtı, evüm taxtı,
Evdən çıqub yüriyəndə səlvi boylum!
Topuğında sarmaşanda qara saçlum,
Qurulu yaya bənzər çatma qaşlum!
Qoşa badam sığmayan dar ağızlum,
Güz almasına bənzər al yanaqlum,
Qavunum, verəgim, döləgüm! (10, 25)

Oğuz qadınları da ərlərinə qarşı vəfalı, sədaqətlidirlər. Xanımının Dirsə xana dediyi:

Xan babamın göygisi,
Qadın anamın söygisi,
Atam-anam verdigi,
Göz açuban gördügim,
Könül verib sevdigim (10, 30)

ifadələri bir daha göstərir ki, oğuzlarda ər-arvad münasibətləri çox mükəmməl bağlarla birləşirdi. Onlar ailə qurarkən ata-ananın rəyi və razılığı əsasında evlənirdilər. Eyni zamanda oğuz qızlarının öz razılığı da vacib sayılırmış. Məlumdur ki, oğuz ərənlərinin xarakterində döyüşkənlik, dəliqanlılıq, hünər, cəsarət vardır. Onlar tez hövsələdən çıxıb ötkəm danışsalar da, xatunlarına bəzən acı sözlər desələr də, qadınları onları "başının tacı" adlandırır. "Oğuz ərlərinin ailə içində çatışma-

yan cəhətlərini xanımları tamamlayırlar. Beləliklə, dastanda oğuz xanımları oğuz ərlərinin qəhrəman xarakterini tamamlamaqla qəhrəmanlıq idealının təcəssümünə xidmət edirlər" (5, 164).

Dastanda ərlə arvadın ən saf, səmimi, sədaqətli və sevgi dolu münasibətini Dəli Domrulla xatunu arasında da görmək mümkündür. Dəli Domrul Əzrayıla öz canının əvəzində can verməli olanda anasının, atasının yanına gedir. Onlar "can şirindir" deyib Domrulu geri qaytarır. Xanımı "mənim canım sənin canına qurban olsun" deyib fədakarlıq edir. Bu sevginin qarşısında Əzrayılın da "ürəyi yumşalır", onların canını almır. Tanrı onlara daha uzun ömür bağışlayır.

Bamsı Beyrəklə Banıçiçəyin də münasibətləri saf sevgi üzərində qurulub. Uzun illər əsirlikdə olmasına baxmayaraq Beyrək öz sevgisinə dönük çıxmır, əsirlikdən geri qayıtdıqdan sonra Banıçiçəyin Yalançı oğlu Yalıncıqla düyününü pozub, Banıçiçəklə evlənir. "Beyrəyin öz eşqinə sədaqəti, bütün çətinlikləri, maneələri aşaraq sevgilisinə çatmaq üçün göstərdiyi fədakarlıqlar Qalın Oğuz eli cavanlarının yüksək əxlaqi-mənəvi keyfiyyətlərinin əyani bir nümunəsidir. Banıçiçəyin vəfası da oğuz tayfaları arasındakı qadının vəfasına və sədaqətinə əsl örnəkdir" (8, 164).

Bacı-qardaş münasibətlərinin ən qabarıq nəzərə çarpdığı boy "Baybörənin oğlu Bamsı Beyrək boyu"dur. Əsirlikdən qayıdan Beyrəyi tanımayan kiçik bacısı "ağam Beyrək" deyərək ilk baxışdan tanıya bilmədiyi ozana qardaşı haqqında danışır:

"Qarşu yatan qara dağı sorar olsan,
Ağam Beyrəgün yaylasıydı;
Ağam Beyrək gedəli yaylarım yoq,
Sovuq-sovuq suları sorar olsan,
Ağam Beyrəgin içədiydi,
Ağam Beyrək gedəli içərim yoq,
Tavla-tavla şahbaz atlarını sorar olsan,
Ağam Beyrəgin binədiydi,
Ağam Beyrək gedəli binərim yoq" (10, 68).

Qardaşından illərlə xəbər tuta bilməyən bacılarının qara geyinməsi, özlərini hər şeydən məhrum etməsi qardaşa olan dərin bağlılığı və sevgini, ehtiramı ifadə edir, nəticədə, qardaş itkisi yaşayan bacıların dilindən yuxarıdakı yasaqlar obrazlı şəkildə ifadə edilir. Qardaşlıq münasibətinin aydın təsviri baxımından "Uşun Qoca oğlı Səgrək boyu"nu görürük. Evləndiyi gün Səgrək özündən böyük qardaşının uzun illər əvvəl əsir düşdüyünü öyrənir. Qardaşının axtarışına başlayır.

Alan sabah yerindən durduğum qardaş içün.
Ağ-boz atlar yorıltmışam qardaş içün...
Böyük qardaş olan Əgrək qardaşı Səgrəyi tanıyandan sonra:
Ağzın içün öləyim, qardaş!
Dilün içün öləyim qardaş!
Ərmi oldun, yigitmi oldun, qardaş!

Qəriblığa qardaşın istəyü sənmi gəldin, qardaş! (10, 152) – deyir. Nümunə kimi verdiyimiz bu parçada qardaş məhəbbətinin təsviri öz poetikliyi ilə diqqəti

cəlb edir. Bu misralarda qardaşlar arasındakı məhəbbətin, doğmalığın və qan bağlılığının ifadəsi onların bir-birinə səmimi müraciətində əks olunub. Ümumiyyətlə, oğuz ailəsindəki doğmalıq, səmimiyyət yüksək poetik ifadələrlə işlənmiş, dastan qəhrəmanlarının hər biri özünəməxsusluğu ilə yaddaşlara köçmüşdür. Oğuz eli ilə oğuz ailəsinin bir-birilə möhkəm vəhdət təşkil etdiyini göstərən T.Hacıyev yazır: "Oğuz ailəsi ilə dövləti bir-birinə çox bağlıdır. Oğuz ailəsinə bir övlad, dövlətinə bir dəyərli şəxsiyyət gələndə toy-bayram kimi qarşılanır. Oğuzun ailəsində bir dəyərli şəxs dünyasını dəyişəndə böyük yasla, şivənlə yola salınardı. Ailə sevinci ilə dövlət təntənəsini, ailə kədəri ilə dövlət səviyyəli yası millət elliklə yaşayırdı" (6, 114).

Məlum olduğu kimi, "Kitabi-Dədə Qorqud" oğuzların mənəvi və əxlaqi dəyərlərinin, ailə məsələlərinin parlaq əks edildiyi abidədir. Hər boyda ailə münasibətlərini, ailə əxlaqını və mənəviyyatını sərgiləyən məqamlara rastlandığını görürük. Bu mənada abidənin əvəzsiz mənbə olduğunu qeyd etməliyik. "Kitabi-Dədə Qorqud" ulu əcdadımızın – oğuzun qədim və şanlı tarixi keçmişini, adət-ənənələrini, ailə və məişət həyatını özündə əks etdirməklə çox böyük dəyərə sahibdir. Belə möhtəşəm ədəbi-bədii abidəyə sahib olan xalq bu kitabla qürur duymaqda haqlıdır.

ƏDƏBİYYAT

1.Bayramov Əkbər. "Kitabi-Dədə Qorqud" dastanlarında etnik-psixoloji xüsusiyyətlərin inikası. Bakı, 2000, 250 s.

2. Əliyev Kamran. Dədə Qorqud. Folklor kitabı. Əsərləri, 10 cilddə, VII cild. Bakı, 2019, 384 s.

3. Əsgər Əfzələddin. Oğuznamə yaradıcılığı. Bakı, 2013, 340 s.

4. Əfəndi Osman. "Dədə Qorqud kitabı"nda "oğul məhəbbəti" ideyasının bədii-estetik təcəssümü. "Dədə Qorqud" elmi-ədəbi toplu I (50). Bakı, 2014, s. 3-13

5. Fərəcova Aynur. "Kitabi-Dədə Qorqud"da qəhrəman və cəmiyyət. Bakı, 2018, 200 s.

6. Hacıyev Tofiq. Dədə Qorqud: dilimiz, düşüncəmiz. Bakı, 1999, 216 s.

7. Hacıyev Tofiq. "Kitabi-Dədə Qorqud" dastanlarının 1300 illik yubileyi üzrə dövlət komissiyasında çıxışı// Səmədov A. "Kitabi-Dədə Qorqud" dastanının tədqiqi və öyrənilməsi tarixindən. Bakı, 2003

8. Həbibbəyli İsa. "Kitabi-Dədə Qorqud": yazılı epos və ya epopeya. Bakı, 2020, 280 s.

9. Qafarlı Ramazan. "Kitabi-Dədə Qorqud" oğuznaməsi: janr, genezis, struktur. "Dədə Qorqud" elmi-ədəbi toplu II (69). Bakı, 2020, s.3-20

10. Kitabi-Dədə Qorqud (Əsil və sadələşdirilmiş mətnlər). Nəşrə hazırlayanı və redaktoru: Tofiq Hacıyev. Bakı, 2004, 376 s.